AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI BİZNES UNİVERSİTETİ

# BAKI BİZNES UNİVERSİTETİN 5 İLLİK STRATEJİ İNKİŞAF PLANI

**Planın əhatə etdiyi dövr: 2014-2018-ci illər**

**Planın müəllifi: Bakı Biznes Universiteti**

**Elmi Şuranın 06.12.2013-cü il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. (Protokol N-4)**

**Təsdiq edirəm:______________**

**Rektor: i.e.d., prof. İ.M.Abbasov**

**“ 7 ” dekabr 2013**

**BAKI-2013**

## PLANIN STRUKTURU

1. **Strateji planın məzmunu**
2. **Strateji inkişaf istiqamətləri üzrə məqsədlər.**
    - Tədrisdə məzmun keyfiyyət dəyişikliyi.
    - Professor-müəllim heyətinin potensialının yüksəldilməsi.
    - Maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi.
    - Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi.
    - Tələbə kontingentinin formalaşdırılması və məzunlarla iş.
    - Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi.
3. **Planın dövrlər və fəaliyyət istiqamətləri üzrə icrası üzrə**

STRATEGİYA

## 1. Strateji planın məzmunu

Tərtib edilmiş strateji plan universitetin strateji inkişafının növbəti 5 illik dövrü üçün strateji fəaliyyət proqramı xarakteri daşıyır. Plan Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası"na uyğunlaşdırılaraq professor-müəllim heyətinin potensialının yüksəldilməsi, Tədrisdə məzmun keyfiyyət dəyişikliyinin artırılması, maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi, elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi, tələbə kontingentinin formalaşdırılması və məzunlarla iş, beynəlxalq əlaqələr istiqamətlərində fəaliyyətin perspektiv inkişafını daha yüksək formada özündə əks etdirir.

**Missiyamız**

- Elmi tədqiqat sahəsini inkişaf etdirmək, biznes və sahibkarlıq sahəsi, habelə dövlət qulluğu üçün əmək bazarının tələblərinə uyğun mütəxəssislər yetisdirmək.

**Vizionumuz**

- Tədris, elm və beynəlxalq əlaqələr sahəsində inkişafa nail olmaqla, ölkəmizin iqtisadi istiqamətdə fəaliyyət göstərən ali məktəblər arasında mövqeyini gücləndirmək.

Planda müvafiq fəaliyyət istiqamətləri üzrə strateji məqsədlər müəyyən olunur, onların icrası aşağıda qeyd olunan məsul şəxslərə həvalə edilir.

| № | Fəaliyyət istiqamətləri və strateji məqsədlər | Məsul şəxslər |
|---|---|---|
| 1. | Tədrisdə məzmun keyfiyyət dəyişikliyi | Tədris işləri üzrə prorektor, tədris hissəsi, kafedra müdirləri |
| **2.** | Professor-müəllim heyətinin potensialının yüksəldilməsi | Rektor, Tədris işləri üzrə prorektor, Beynəlxalq əlaqələr üzrə prorektor |
| 3. | Maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi | Rektor, Tədris işləri üzrə prorektor, Rektorun köməkçisi |

| | | |
|---|---|---|
| **4.** | Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi | Elmi işlər üzrə prorektor, Tədris işləri üzrə prorektor, Elmi tədqiqat Mərkəzləri |
| 5. | Tələbə kontingentinin formalaşdırılması və məzunlarla iş | Təlim-tərbiyə işləri üzrə prorektor. |
| **6.** | Beynəlxalq əlaqələrin inkişaf etdirilməsi | Rektor, Beynəlxalq əlaqələr üzrə prorektor |

## 1. Tədrisdə məzmun keyfiyyət dəyişikliyi

Tədris fəaliyyəti Ali Təhsil Müəssisələri üçün əsas fəaliyyət növü hesab edilir. Keyfiyyətli mütəxəssis hazırlanmasının əsas və vacib amillərindən biri tədrisin yaxşılaşdırılması məsələsidir. Bu məsələ Bakı Biznes Universiteti üçün də ümdə və vacib məsələlərdən biridir.

1. Tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müasir texnologiyaların və metodların tətbiqi. Tədrisin keyfiyyətli formada təşkilinin həyata keçirilməsi illər üzrə planauyğun formada nəzərdə tutulur.

2. Hər il pilot qrupları yaratmaqla tədrisin yüksək səviyyədə təşkilinə nail olmaq. Həmin qruplardan daha yüksək mütəxəssis hazırlığının və gələcəkdə tələbə mübadiləsinin həyata keçirilməsi məqsədilə istifadə etmək.

3. Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə standartların tələbləri saxlanılmaqla, proqramların məzmunu yeniləmək.

4. Tələbələrin sərbəst işləmək bacarığını inkişaf etdirmək məqsədilə daha yeni və təkmil əyani vəsaitlərdən istifadəyə üstünlük vermək.

5. Tədrisin müasir texnologiyalarına, proyektorlar və kompüterlərdən istifadəyə üstünlük vermək, bu məqsədlə elektron materialların, slaydların tərtib olunması, audio və video materiallardan istifadə olunması. Bu məqsədlə tədris olunacaq bütün fənlər üzrə slaydların tərtib olunması və dərslərin slaydlarla keçirilməsi, mühazirə materiallarının yenilənməsi.

6. Tədrisin keyfiyyətinə təsir edən amillərdən biri dərslərin keyfiyyətli təşkili və həyata keçirilməsidir. Heyətin potensialı ilk növbədə müasir tədris texnologiyalarının tətbiqi ilə əlaqədardır. Müasir texnologiyalar tədris zamanı istifadə olunan fəal təlim üsullarından, slaydlardan, texniki vasitələrdən, proyektor, linqafon, audio-video materiallardan ibarətdir.

7. Müasir təhsil standartlarına əməl etməklə, ölkəmizin ali təhsil müəssisələri ilə rəqabət potensialının gücləndirilməsi.

8. Sərbəst fikir yürütmək bacarığını aşılamaq üçün seminar dərsləri üçün tələbələr tərəfindən mövzu üzrə tezislərin tərtib edilməsi, (hər plan üçün 5-7 tezis sualları) seminar dərslərinin tezis sualları əsasında aparılması.

9. Yüksək səviyyəli mütəxəssis hazırlığının əsas şərtlərindən biri də tələbələrin motivləşdirilməsi və tədrisdə onların mobilliyinin artırılmasıdır. Tələbələrin motivləşdirilməsi dedikdə, onların auditoriya daxilində və auditoriyadan kənar təhsil alma prosesində aktivliyinin artırılması, ruhlandırılması və həvəsləndirilməsi başa düşülür. Tələbələrin motivləşdirilməsi sahəsində atılacaq addımlar aşağıdakılar hesab olunur.

9.1. Tələbələrin, magistrların və doktorantların xaricdə təhsillərinin davam etdirilməsi ilə bağlı əlaqələrin genişləndirilməsi.

9.2. Seminar dərslərində tələbələrin müstəqil fikir yürütmək bacarıqlarının formalaşdırılması. Bu məqsədlə tələbələrə dərs prosesində daha çox yaradıcı xarakterli suallarla müraciət etmək, əqli hücum və debat xarakterli müzakirələrə üstünlük vermək, onlara sərbəst işləmək üçün ESSE mövzuları vermək və s.

9.3. Universitetdaxili müsabiqələr və intellektual yarışlar keçirmək və fərqlənənləri təltif etmək.

9.4. Kafedralarda keçirilən elmi seminarlara ixtisas qruplarının sonuncu kurs tələbələrini və magistrantları dəvət etmək.

9.5. Tələbələrin elmə istiqamətləndirilməsi və bu sahədə onlarda stimul yaratmaq. Bu məqsədlə magistraturaya və dissertanturaya hazırlıq kurslarını keçirmək.

9.6. Xüsusi istedada malik olan tələbələr üçün fərdi plan əsasında təhsil proqramından və tədris prosesindən kənar məşğuliyyətin təşkili üçün müxtəlif layihələrin (divar qəzetlərinin tərtib olunması, milli bayramlarımızda tədbirlərin) həyata keçirilməsi.

10. Elmi seminarlarda mübahisə doğuracaq problemli suallara daha çox üstünlük vermək, aktual problemlər üzrə çıxışlar hazırlamaq.

## 2. Professor-müəllim heyətinin potensialının yüksəldilməsi.

1. Müasir dövrdə ən mütərəqqi tədris metodikalarından biri kimi interaktiv tədris metodlarının tətbiqi zəruri hesab edilir. İnteraktiv tədris metodlarını tətbiq etmək üçün metodologiyanın tətbiqi bacarığının formalaşdırılması tələb olunur. Tədrisin məzmununun keyfiyyətinin artırılması ilk növbədə professor-müəllim heyətinin potensialının yüksəldilməsindən ibarətdir. Kafedralar bu prosesin həyata keçirilməsini təmin etməli və işin gedişatına daim nəzarət etməlidirlər.

2. Tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədilə hər bir kafedranın ixtisas spesifikası nəzərə alınmaqla tədrisdə müxtəlif fəal təlim metodikasının tətbiqinə nail olunsun.

3. Yeni metodikanın və texnologiyanın tətbiq edilməsi məqsədilə müəllimlərin təkmilləşdirilməsi, bunun üçün müvafiq kursların təşkil edilməsi.

4. Prosesin I mərhələsində hər kafedra tərəfindən ən azı 3 üsul seçilməli və tətbiq olunmalıdır. Bu proses cari payız semestrinin sonunadək sınaqdan keçirilməlidir. Növbəti yaz semestrində müəllimlərdə növbəti 3 üsul aşılanmalıdır. Gələn tədris ilinin payız semestri növbəti 3 metod tətbiq edildikdən sonra artıq növbəti fəal təlim üsullarının tətbiqinə nail olmaq olar.

5. Professor-müəllim heyəti fəal təlim üsullarını tətbiq edərkən onlardan ardıcıl formada tətbiq etməklə istifadə etsinlər. Məsələn, BİBÖ, ziqzaq üsullarını tətbiq edərkən paralel olaraq debat, şaxələndirmə, VEN diaqramından istifadə edə bilərlər.

6. Dərslərin keyfiyyətinə nəzarət məqsədilə professor-müəllim heyətinin dərslərinin mütəmadi dinlənməsi. Dərslərdə rəhbərlik nümayəndələri (rektorluq, dekanlıq, tədris hissəsi) və kafedra müdirlərinin iştirakı nəzərdə tutulur. Açıq dərslər müəllimin dərs demək qabiliyyətini üzə çıxarır, onun fəaliyyətinə qiymət verməyə imkan yaradır. Dərsin nəticələri kafedra iclaslarında müzakirə olunmalı, fəaliyyəti qeyri-qənaətbəxş hesab edilən müəllimlərə növbəti tədris ilində dərs yükü ayrılıb-ayrılmaması məsələsi elmi şuraya tövsiyə olunmalıdır.

7. Müəllimlərin həvəsləndirilməsi məqsədilə, tədris ilinin sonunda ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi və fərqlənən müəllimlərin mükafatlandırılması.

Nominasiyalar həm açıq dərslərin müzakirə protokolları, həm də qrupun imtahan cədvəllərinin göstəriciləri nəzərə alınmaqla müəyyən olunmalıdır.

## 3. Maddi-texniki bazanın müasir standartlara uyğun yenidən qurulması və təkmilləşdirilməsi

1. Kafedraların istiqamətlərinin və tədris olunan spesifik fənlərə görə müasir fəal-təlim otaqlarının yaradılması.

2. Həmin otaqların fəal təlim üsullarına aid avadanlıqlarla təchiz edilməsi.

3. Universitetin elektron kitabxanasında dissertasiya bölməsinin yaradılması. Bakalavriat, magistrant və dissertantların məqalələrinin, həmçinin "Audit" jurnalının məqalələrinin elektron versiyalarının həmin bölmədə yerləşdirilməsi.

## 4. Elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi.

Tələbələrin elmi-tədqiqat fəaliyyəti təhsildə elmlə tədrisin sintezinin həyata keçirilməsini təmin edir, elmi sahədə tələbələrin bacarıqlarının formalaşmasına müsbət təsir göstərərək, aşağıdakı istiqamətlərdə onların sosial inkişafını təmin edir. Elmi tədqiqat işlərinə nəzarət TEC və kafedralara həvalə edilir. Elmi tədqiqat işləri ilə əlaqədar aşağıdakı işlərin yerinə yetirilməsi nəzərdə tutulur.

1. Professor-müəllim heyətinin elmi tədqiqat işlərinin audit elmi jurnalında maksimum nəşrinə nail olmaq.

2. Elmi tədqiqat işlərinin beynəlxalq jurnallarda nəşrinin stimullaşdırılması.

3. Elmi-tədqiqat mərkəzlərinin fəaliyyətinin tam planauyğun şəkildə həyata keçirilməsinin təmin olunması. (Bax TEC-in əsasnaməsi).

4. Tələbələrin elmi tədqiqata cəlb olunması. Bu məqsədlə onların elmi tədqiqat dərnəklərində birləşdirilməsi.

5. TEC tərəfindən kafedralarda elmi-tədqiqat dərnəklərinin işinə nəzarət etmək, dərnəklərin seminarlarının mütəmadi olaraq keçirilməsini təmin etmək.

6. Tələbələrin, professor-müəllim heyətinin, elmi işçilərin bir sıra hakimiyyət və biznes nümayəndələri ilə görüşlərini təşkil etmək;

7. Tədris ilinin yekunlarına görə elmi tədqiqat işində yüksək nəticələr əldə etmiş tələbələrin stimullaşdırılması.

8. Magistrantların elmi-tədqiqat işlərini nəşr etdirmək.

Tələbələrin elmi-tədqiqat fəaliyyəti kafedralarda hazırlanan ixtisaslara uyğun olaraq həyata keçirilir. Kafedralar üzrə elmi-tədqiqat fəaliyyətinin istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir.

| № | Kafedralar | Elmi-tədqiqat istiqamətləri |
|---|---|---|
| 1. | "Maliyyə" kafedrası | 1.Maliyyə<br>2.Pul, kredit və banklar<br>3.Sığorta işinin təşkili |
| 2. | "Tərcümə" kafedrası | 1.Tərcümə (ingilis dili)<br>2.Filologiya (ingilis dili) |
| 3. | "İqtisadi nəzəriyyə" kafedrası | 1.İqtisadiyyat<br>2.Makroiqtisadiyyat<br>3.Mikroiqtisadiyyat<br>4.Dünya iqtisadiyyatı<br>5.BİM |
| 4. | "Mühasibat uçotu və audit" kafedrası | 1.Mühasibat uçotu<br>2.Audit<br>3.Statistika<br>4.İqtisadi təhlil |
| 5. | "Sənayenin təşkili və bələdiyyə idarəetməsi" kafedrası | 1.Sənayenin təşkili<br>2.Dövlət idarəetməsi<br>3.Bələdiyyə idarəetməsi<br>4.Milli iqtisadiyyat |
| 6. | "Marketinq və menecment" kafedrası | 1.Marketinq<br>2.Menecment<br>3.Biznesin idarə edilməsi<br>4.İnnovasiya |
| 7. | "Humanitar" kafedrası | 1.Tarix<br>2. Mədəniyyətşünaslıq<br>3.Hüquq<br>4.Fəlsəfə<br>5. Psixologiya |
| 8. | "Ali riyaziyyat" kafedrası | 1.İnformasiya sistemləri<br>2.İqtisadi informasiyalar və kompüter texnologiyası |

## 5. Tələbə kontingentinin formalaşdırılması və məzunlarla iş

1. Milli-mənəvi və ümumbəşəri dəyərlərin qorunması və geniş dünyagörüşünün formalaşdırılması istiqamətində, müstəqil və yaradıcı düşünən ixtisaslı kadrların yetişdirilməsi məqsədiilə Universitetin digər təhsil müəssisələri ilə, o cümlədən ümumtəhsil məktəbləri, liseylər və hazırlıq kursları ilə birgə tədbirlərin keçirilməsi, təbliğat xarakterli buklet, qələm və təqvimlərin paylanmasının təşkili.

2. Araz, "Abituriyent", "Bilik" və digər hazırlıq kursları ilə birgə bilik yarışlarının və təqdimatların təşkili, fərqlənənlərin stimullaşdırılması və reklam işinin həyata keçirilməsi.

3. Bakı Biznes Universitetində Yasamal, Səbail, Nəsimi, Binəqədi, Xətai, Suraxanı və Nərimanov rayon orta məktəb şagirdlərinin iştirakı ilə BBU-da tarixi günlər, bayramlar və yubileylərə həsr olunmuş tədbirlərin təşkil etmək.

4. BBU-da "Gənc biznesmen olmaq üçün ilk addım", "Uğurlu təhsil-uğurlu karyera", "Bakı Biznes Universiteti və uğurlu karyera", "Azərbaycanın təhsil sistemində Bakı Biznes Universitetinin yeri", "BBU-nun bu günü və sabahı", "BBU-nun beynəlxalq əlaqələri" mövzularında tanıtımların təşkili.

5. Bədii yaradıcılığın inkişafı və fiziki tərbiyəni formalaşdırmaq üçün dərnək fəaliyyətinin fəallaşdırılması, dərnəklərin tədbir və konsertlərinin təşkili.

6. Təcrübənin öyrənilməsi məqsədilə marketoloqlar, menecerlər və biznesmenlərlə görüşlərin təşkili.

7. Hərtərəfli formalaşma, bilik və bacarıqların artırılması məqsədi ilə görkəmli ziyalılarla, yaradıcılarla, qəhrəmanlar, müharibə veteranları ilə görüşlərin təşkili.

8. Tələbə maraqlarının, rəylərinin öyrənilməsi, maraq və rəylərə müvafiq tədbirlərin həyata keçirilməsi.

9. Tələbələrdə sərbəst fikrin formalaşdırılması məqsədilə müxtəlif istiqamətli inşa müsabiqələrinin və müxtəlif mövzularda intellektual oyunların keçirilməsi.

10. İşəgötürənlərlə (idarə, müəssisə, təşkilatlar) universitetin əlaqələrinin gücləndirilməsi istiqamətində birgə elmi-mədəni tədbirlərin təşkili.

11. Məzunların işlə təmin edilməsi məqsədilə Universitetdə sərgi – yarmarkaların təşkili.

12. Universitetin Təhsil Nazirliyi və digər nazirlik, komitələrin təşkil etdikləri təhsil və karyeraya aid sərgilərdə iştirakını təmin etmək.

## 6. Beynəlxalq əlaqələrin inkişaf etdirilmısi

Beynəlxalq sahədə strateji inkişafın əsas hədəfləri aşağıdakı perspektivlərdə nəzərdə tutulan məqsədlərə nail olmaqdır.

- Əməkdaşlıq
- Tələbə mübadiləsi
- Təhsil proqramlarının araşdırılması və inkişafı
- Respublikamızda fəaliyyət göstərən beynəlxalq təşkilat və səfirliklərlə davamlı olaraq əlaqələrin qurulması və onların həyata keçirdiyi təhsil proqramlarında yaxından iştirak etmək
- Beynəlxalq layihələrdə iştirak etmək
- Xaricdə təhsil və təqaüd proqramları

Beynəlxalq Əlaqələr Şöbəsi Universitetin Beynəlxalq mühitə inteqrasiyasına, müxtəlif universitetlərlə əlaqələrin yaradılmasına, beynəlxalq təlim və proqramlarda iştirakına şərait yaradır.

Şöbə hər bir fakültə və kafedranı Universitet səviyyəsində elm, təhsil, mədəni sahələr üzrə müvafiq universitet və beynəlxalq təşkilatlarla əlaqələr və məqsədyönümlü əməkdaşlıq yaratmaları məqsədi ilə koordinasiya edir, beynəlxalq əməkdaşlığın gələcək töhfələrinə dair danışıqlar aparır.

Beynəlxalq Əlaqələr Şöbəsi universitetlər və təşkilatlarla müvafiq müqavilə və memorandumların hazırlanmasında məsuliyyət daşıyır, müqavilə imzalanmış qurumlarla əlaqələrin planlanmasına, davamlılığına və koordinasiyasına nəzarət edir, mübadilə proqramlarında müəllim və tələbə heyətinin iştirakını, Universitetin

beynəlxalq aləmdə reklamını, xarici tələbələrin Universitet haqqında məlumatlandırılmasını, qlobal yeniliklərin tədris kurikulumuna inteqrasiya etməsini təmin edir, eyni zamanda akademik heyətin fəal araşdırma və inkişaf proqramlarına cəlb olunması üçün müvafiq tədbirlər həyata keçirir.

Şöbə Erasmus plus proqramı daxilində olan qrant layihələrinin ətraflı tədqiq olunması, müvafiq kafedraların layihələrə cəlb olunması, Erasmus Mundus tələbə və akademik heyət mübadilə proqramları haqqında universitetdə məlumat günlərinin keçirilməsini təmin edir.

E-NOTES TEMPUS layihəsinin idarəçiliyinə nəzarət etmək, ECDL test mərkəzinin yaradılması, müvafiq kadr seçimi və mərkəzin fəaliyyətinin idarə edilməsində yaxından iştirak edir.

1. Qrant layihələrin yazılması və layihə yazılmasına müxtəlif kafedraların cəlb olunması.
2. Universitetin Beynəlxalq təhsil proqramlarında iştirakı.
3. Ölkə daxilində və xaricində keçirilən elmi konfranslarda, simpoziumlarda, tədbirlərdə universitet müəllimlərinin və tələbələrinin iştirakının təmin olunması, keçiriləcək beynəlxalq konfrans, simpozium və s. haqqında məlumatların mütəmadi olaraq kafedralara çatdırılması.
4. Əməkdaşlıq sazişi imzalanan universitetlərlə Tələbə mübadilə proqramlarının həyata keçirilməsi.
5. Universitet professor – müəllim heyətinin ölkə xaricində keçirilən ixtisas artırma proqramlarında iştirakının təmin olunması.
6. Türkiyə və Avropa ölkələrinin universitetləri ilə ikitərəfli əməkdaşlıq sazişlərinin imzalanması və münasibətlərin inkişaf etdirilməsi.
7. Universitetin iş dünyası ilə əlaqələrinin möhkəmləndirilməsi.
8. Beynəlxalq iclas və seminarlarda universiteti təmsil etmək məqsədi ilə ingilis və rus dillərində universitetin tanıtım materiallarının hazırlanması.

9. Digər Universitetlərdə fəaliyyət göstərən yüksək ixtisaslı kadrların universitetdə müxtəlif təlim kurslarının keçməsini təşkil etmək.

10. Türkiyənin bir sıra universitetləri ilə Mövlana tələbə mübadiləsi haqqında razılıq memorandumlarının imzalanması və tələbələrin mübadilə proqramında iştirakının təmin edilməsi.

11. Xaricdə təhsil adlı məlumatlandırma günlərinin keçirilməsi.

12. İkili və ya ortaq diplom layihələrinin həyata keçirilməsi sahəsində tədbirlər.

13. Universitetin veb səhifəsində şöbənin fəaliyyəti ilə əlaqədar yeniliklərin mütəmadi əks olunması.